

Kənan Hacı

# Hacı İsgəndər

**Roman**

**(əvvəli ötən sayımızda)**

### Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***İsgəndər dedi:***

***- Gərək Məşədi Azəri də çağıraydım. Xəbəriniz var da, Hacı Zeynalabdin Tağıyev Məşədinin "Həmvətənlərimə" kitabının çapını öz üzərinə götürüb.***

***Haşım bəy eşitdiyi xəbərdən sevindi:***

***- Nə gözəl xəbər oldu! Məşədi Azər bizim ustadımızdır, həmişə ondan öyrənirik. Sabah yığışıb gedərik yanına, onu təbrik edərik.***

***İsgəndər: "Siz Allah, gedəndə məni də özünüzlə aparın" dedi. Razılaşdılar.***

***Əlsuyu veriləndən sonra süfrəyə bir-birindən ətirli yeməklər düzüldü.Zəfəranlı döşəməplov, balıq, quzu ətindən albuxaralı və şabalıdlı qovurma, kababı, kükü...Növbənöv xuruşlar, şərbətlər.***

***İsgəndər ayağa qalxıb qonaqları salamladı:***

- Hamınız xoş gəlib səfa gətirmisiniz! İndi isə yeməyinizi soyutmayın! Haşım bəy "bismillahir-rəhmanir-rəhim" deyəndən sonra hamı süfrəyə əl uzatdı. Bir-birindən ləziz təamları qonaqlar iştaha ilə yedilər. Süfrə yığışdırılandan sonra Əlihüseyn qonaqlara samovar çayı gətirdi. Bundan sonra, nəhayət, İsgəndər niyyətini açıb onlara dedi:

- Siz ikiniz də əziz qonağımsınız. Mənim sizdən gizlin heç bir işim yoxdur, ola da bilməz. Allaha şükürlər olsun, ruzimi yetirir, əlim çörəyə çatıb. Hər bir müsəlman üçün vacib olan Həcc ziyarətinə getdim, arzum qəbul olundu, Allahımdan çox razıyam!

İkisi də bir ağızdan "Allah ziyarətini qəbul eləsin!" dedi.

İsgəndər əlini sinəsinə qoyub təşəkkür elədi və söhbətin ardını gətirdi:

- Bilirsiniz də, bir neçə il bundan əvvəl kəndimizdə Cümə məscidi tikilməyə başlamışdı. Allah Kəblə İmrana rəhmət eləsin! Niyyət eləmişdi ki, məscid hazır olsun, hər gün gəlib burda namaz qılacağam. Heyif, iş yarımçıq qaldı. İndi mənim ağlıma bir fikir gəlib. İstəyirəm ki, sizlərin dəstəyi sayəsində bu məscidin tikintisini başa çatdıram.

***Araya sükut çökdü. Namulla bəy çaxmaq çəkib qəlyanını odladı. Haşım bəy Namulla bəyin xasiyyətinə bələd idi, kişi qəlyanını çıxarmışdısa, ona fikirləşmək üçün vaxt vermək lazım idi. Birinci Haşım bəy dilləndi:***

***- Allah Kəblə İmrana da, o məscid üçün zəhmət çəkənlərə də qəni-qəni rəhmət eləsin! Qalanların Allah ömrünü uzun eləsin! Həci, sən nə deyirsənsə, biz o sözün arxasındayıq. Çox yaxşı fikirdir.***

Namulla bəy də zarafata saldı:

- Nə qədər ki, bu bolşeviklər pul-paramızı əlimizdən almayıb, xəzinənin ağzını açıb bu məscid üçün xərcləsək, yaxşıdır. Heç olmasa, bu dünyada axirətimizi qazanarıq.

Gülüşdülər.

***

Beləcə, məscidin bərpası üçün hazırlıq işləri görülməyə başladı.

Bircə Şeyx Əbasəlt də xeyir-dua versəydi... Hacı İsgəndər sübh tezdən oyanıb əynini geyindi, Məşədi Qərib məscidinə üz tutdu. Məscidin axundu Şeyx Əbasəlt adətən, məscidə xoruzun ikinci banında gələr, azanın vaxtında verilməsinə, dəstəmaz üçün su hazırlığına, namaz ibadətgahında xalı-xalçaların səliqəli döşənib-döşənməməsinə diqqət yetirərdi. Hamı gəlib yığışandan sonra yaşıl məxmərdən olan canamazını götürüb qabağa düşər, ibadətgahda adamların qarşısında yerə sərər, qara qotazlı möhürqabıdan möhürünü çıxarıb onun üstünə qoyar, qara dənəli Xorasan təsbehi ilə möhürün qarşısını aypara şəklində bağlayar, sonra ağır hərəkətlə sübh namazına başlayardı. Ondan arxada dayanan pişnamaz, sonra da bütün ibadət əhli Axundun hərəkətlərini dəqiq icra etməklə namaz qılardılar.

Sübh ibadəti başa çatdı, adamlar çəkilib gedəndən sonra Axund rahat nəfəs aldı, pişnamazına səliqə-sahmana göz yetirməsini tapşırıb məscidin qapısından həyətə çıxdı. Baxdı ki, Hacı İsgəndər həyətdə durub onu gözləyir. Salamlaşdılar.

***- Sübh tezdən gəlməkdə xeyirdimi, Hacı?***

***- Ömrünüz xeyirə calansın, Şeyx! Sizinlə bir məsələni məsləhətləşmək istəyirəm.***

***- Buyurginən. Atalar demişkən, "məsləhətli don gen olar".***

***- Cümə məscidinin tikintisi yarımçıq qalıb, bilirsiniz. İstəyirəm onu tikib başa çatdıraq.***

***Şeyx Əbasəlt pilə kimi ağ saqqalına tumar çəkib gülümsədi. Əbasının ətəyini əlinə yığıb məscidin qarşısındakı daş səkinin üstə qoyulmuş döşəkçənin üstündə oturdu.***

***- Nə deyirəm, oğul. Allah xeyir versin! Bilirəm, sən halal adamsan, haramla işin olmaz. Nə qazanmısansa, öz zəhmətinlə qazanmısan. Allah bu işi başa çatdırmaqda sənə yardımçı olsun!***




***Hacı İsgəndərin kefi duruldu. İndi yaxşı bir usta və günəmuzd işləyən fəhlələr tapmaq lazım idi.***

***

Cümhuriyyətin elan olunması Hacı İsgəndərin qəlbində ümidlər cücərtmişdi. Ürəyində yığılıb qalan arzuları gerçəkləşdirməyin məqamı yetişmişdi. Tarixi zərurət deyilən məqam onun qarşısında geniş imkanlar açırdı. Həmin fərəhli günlərdə tez-tez Ağa Musa Nağıyevlə, Hacı Zeynalabdinlə görüşür, reallaşdırmaq istədiyi planları haqda onlarla fikir mübadiləsi aparırdı. Əlbəttə, imkanları daxilində xeyli işlər görmüşdü. Amma ən böyük arzusu tikintisi yarımçıq qalmış Cümə məscidi ilə bağlı idi. Kəndin axundundan bu iş üçün xeyir-dua almışdı, Şeyxülislam Ağa Əlizadə ilə də görüşüb onun rizasını almaq istəyirdi. Bu günlərdə o, romantik idealistlər kimi yerəgöyə sığmırdı. İstəklərinin alovu damarlarındakı qanı qaynadırdı, qan damarlarına sığmırdı. Bu fədakarlıq, altruizm onun fitrətində idi. Ağa Musa kreslosunda yellənə-yellənə onu arxayın etdi:

- Atam, atam, sən heç narahat olma. Bu iş bizlikdir, sən işə başla. Lap yaxın günlərdə səni Şeyxülislamla da görüşdürərik.

Hacı Zeynalabdin də dostunun sözünə qüvvət verd:

- Hacı, səndə ki, bu ürək var, sən hələ çox böyük işlərə imza atacaqsan!

Hacı Zeynalabdin sanki sövq-təbii hiss edirdi ki, qarşısında əyləşmiş bu comərd adamın çiyninə uca Yaradan daha böyük bir missiya qoyub. Cəmi bir neçə aydan sonra Hacı İsgəndər millətin öndə gedənlərindən biri olacaq, xalq qəhrəmanına çevriləcəkdi. İçinə sığışmayan enerji onu döyüş meydanlarına gətirib çıxaracaqdı. Hər şey Nuru Paşanın gəlişiylə baş verəcəkdi. Nuru Paşanın gəlişinə isə bir neçə ay qalırdı.

***

Kənd camaatı məsciddə tikinti işlərinin getdiyini görüb sevinirdi. Hacı İsgəndər bütün günü işə nəzarət edirdi. Ustalar məscidin günbəzi üçün daş yonurdular. Kəndin cavanları könüllü şəkildə gəlib ustalar üçün fəhləlik edirdilər; kimisi kəc qarışdırır, kimisi qum daşıyır, kimisi də ustaya daş verirdi. Sevincdən Hacı İsgəndərin ürəyi köksünə sığmırdı, intizarla tikintinin başa çatacağı günü gözləyirdi. Arada işlər ləng gedirdi, belə olanda Hacının hövsələsi bir tikə olurdu, özünə yer tapa bilmirdi. Havalar soyuyanda Kəblə İmran möhkəm xəstələndi və yatağa düşdü. Üstünə bir yəhudi həkim gətirdilər, uzun-uzadı müayinədən sonra həkim ustaya sətəlcəm diaqnozu qoydu. Beləcə, Kəblə İmran düz üç ay yataqda qaldı, onun bütün müalicə xərclərini Hacı İsgəndər ödəyirdi. Səbirsizliklə gözləyirdi ki, usta tez sağalsın və işinə qayıtsın. Tikinti müvəqqəti dayandırılmışdı. Amma Hacı İsgəndər hər gün inşaat yerinə baş çəkir, ərazini gəzib-dolanırdı, kənd ağsaqqalları da onun başına yığışır, razılıqlarını bildirir, məsləhətlərini verirdilər. İmamnəzər kişi Hacıya dəyərli məsləhətlər verir, onu ruhdan düşməyə qoymurdu.

***- Hacı, Allahın rizası ilə bu məscid tikiləcək. Sən sadəcə, bir vasitəçisən. Allah hər işi yoluna qoyacaq, bir az hövsələli ol. Gələcəkdə bizim nəvənəticələrimiz hər dəfə bu məsciddə Allaha ibadət edəndə bizi də xatırlayacaqlar. Deyəcəklər ki, Allah o kişilərə rəhmət eləsin! Bu işin savabı böyükdür.***

***Amma hansısa bir hiss Hacı İsgəndərin içini gəmirirdi, onun rahatlığını əlindən alırdı. Nədənsə ona elə gəlirdi ki, o, bu işi başa çatdıra bilməyəcək. Hardan qaynaqlanırdı bu nigarançılıq, onu narahat edən hansı səbəblər idi? Axı bu işə əngəl olacaq səbəblərin hamısı aradan qalxmışdı, onun qarşısında heç bir maneə yox idi. İş irəlilədikcə tikinti üçün lazım olan materiallar əraziyə gətirilirdi, Kəblə İmranın başçılığı ilə məscidin divarları günbəgün bir az da qalxırdı. Hacının dənizdə də işləri pis getmirdi, Allah ruzisini yetirirdi. Zahirən hər şey qaydasında idi. Narahatlıq üçün əsas yox idi. Amma Hacı narahat idi.***

**(davamı gələn sayımızda)**